Ədəbiyyat qəzeti

24 dekabr / 2020

# "70"-ə salam



## *Şair dostum İsa Sevənin 70 yaşına təbrik əvəzi*

...Dörd yaşı olanda, atası evlərinin uçan divarı altında qalanda başladı "Yetim segahı"nı oxumağa. Elə oxuyurdu, elə oxuyurdu, əllərinin şum ətri verən qabarı əkinçi nəğmələrinə, suçu zümzümələrinə döndü. Gecələr quşlardan uçmaq, gündüzlər suların şırıltısından ömrün dərinliyinə dalmaq öyrənirdi... Sonra misralara düzdü gumultularını:

*Keçini,*
*Keçi ayağına,*
*Qoyunu, qoyun elə,*
*İlahi!*

*Yığ bütün yetimləri,*
*Bir yerə,*
*"Segah" oxuyum, -*
*Toyunu elə, İlahi!.*

Yetimin oxuduğu nəğmələr yandırıcı olur. Ürəyi olan, duyğusu, idrakı olan bir qulaq asanda, iki də qulaq asmaq istəyir. İllərin yarışından xəbəri olmur ki, adamın?! İllər, gecənin qaranlığında, axşamın xəlvətində xırmandan buğda oğurlayanlara bənzəyir. Bu məqamda götürüb yazır ki:

*Öldür məni,*
*Öldür qızım,*
*Kitaba, siqarətə*
*Güclə çatır mənim param,*
*Söz baldan yeməlidi, -*
*Sənə söz yedirdərəm,*
*Mənim balam!*

Ömrünün 50 ilə yaxın bir zamanını müqəddəs bir peşəyə - müəllimliyə həsr eləyən adam, təkcə öz ürək parasına deyil, cəmiyyətə "Yetim segahı" üstündə sözü bal kimi yedirtmirsə, şair olmur axı?!. Sözün bal tamını bilənlər bilir!

Yenə də fəsillər bir-birini qovur. Günlər, aylar uçur, harasa tələsir. Divardan asılan saat da özünü xəlvətə verib, zamanın, vaxtın yerişini gizləyə-gizləyə öz işindədi... O, bu dəfə Tahir müəllimlə (mərhum müəllim dostu) "Zabul" oxumasa, cəmiyyəti ürək kimi göynədən dərdlərin acılığı sınmayacaq, dünyanın bozluğu səngiməyəcək...

Vaxt əriyirdi, illərin sısqa hənirini belə hiss eləmədi. Günlər ətcəmətən quş balaları kimi əllərindən sürüşüb düşürdü. Həftənin qaçışını isə bircə bazar günləri duya bilirdi. Tale və bitib tükənməyən qayğılar onun günlərini üç yerə bölmüşdü. Birinci bölüm - məktəbdə, sinif otaqlarında - auditoriya qarşısında keçirdi. Gözlərinin nurunu, qəlbinin sevgisini, işıqlı duyğularını doğma balalarından seçmədiyi şagirdlərinə bağışlayırdı - canı-dildən, təmənnasız.

İkinci bölümdə - bir neçə saatlıq taxıl, arpa, yonca becərdiyi "pay torpağı"nda əlləşməklə keçirdi. Bu balaca torpaq payı onun balalarının çörək təknəsidir. Onun qoynunda tər tökmək, dünyanın ən təkrarsız halallığına sahib çıxmağa bərabərdir... O həm də şair-əkinçi ömrünü yaşayır.

Üçüncü bölümdə - işıqlı duyğuları şam kimi, şair ömrünü dörd divar arasına pərçimləyən gecələrdə onu yaşadan yazı masasını işıqlandırırdı. Pəncərəsində hər gecə qızaran siqaret közü, ürəyinin yaratmaq eşqiylə qovuşub, onu dan yerinə aparırdı.

Beləcə, illər ayağının ucunda yeriyən adamlar kimi səssizcə ötürdü. Bir-birindən oxunaqlı doğma Xanərəb kəndinin rayihəsi duyulan dörd şeir kitabı bağışladı cəmiyyətə! "Dağlar da ağlayırdı", " Yetim segahı", "Anamın duaları" və "Qarabağ simfoniyası".

Kənd toylarında dost-tanış, qohum-yad onu yeyib-içəndən sonra oyuna-rəqsə çağırdılər. Oynaya bilmir axı. Bu boyda dünyanın dərdləriylə qol-boyun adam necə oynasın?! Beləcə, "Yetim segahı"nı oxuya-oxuya bir gün götürüb yazdı ki, "Mənim də dərdimi oynadın, qağa". Yəni heç olmasa özüm oynamıram-oynamıram, dərdlərimi oynadın, təsəlli tapım!

*Yetim çırağın da pərvanəsi var,*
*Mənim də dərdimi oynadın, qağa!*
*"Yetim segahı"nın da divanəsi var,*
*Mənim də dərdimi oynadın, qağa!*

*Bu qış da mahnadı, yay da mahnadı,*
*Bu dolmuş gözlərə vay da mahnadı.*
*Mənim dərdim ki var, hazıt mahnıdı,*
*Mənim də dərdimi oynadın, qağa!*

"Yetim segahı"ynan dərdlərin oynamağını gərək gözünlə görəsən ki, bu "qoşalığın" rəqsinin fəlsəfəsini tapasan. Sonra da deyəsən ki;

*Buludlar göylərdə qoşa oynayır,*
*İldırım çırpılır daşa, oynuyur,*
*Ayağın ağrısı başa oynuyur,*
*Mənim də dərdimi oynadın, qağa!*

...Bir günorta yatmışdım. Yuxuda gördüm ki, evimizin yanındakı dəmir yolu xəttinin o üzündən şair dostum İsa Sevər məni çağırır. Deyirəm ki, ay kişi, bu yetmiş metr yolu gəlmək nə çətin işdir ki?!

...Telefon zənginə oyandım. Şair dostum, ustadım Telman Hüseyn Anadil idi... Dedi ki, İsa Sevərin 70 yaşını qeyd edirik, "Soyuq bulaq"dayıq.

Xeyli dinib, danışa bilmədim. Qulaqlarıma da inana bilmirdim... Hələ də bir sualın cavabını tapa bimirəm: "Nə tez oldu?..".

Özümü cəmləyib İsa Sevərin "70"-nə bir salam verdim. Yubileyin mübarək, əziz dost!



**Rizvan NƏSİBOĞLU**